Qalib, güclü ölkədə yeni mərhələ başlayıb

Uğurların təməlində birliyimiz, dövlət başçısına inam və etimad dayanır

Azərbaycanın yaratdığı tarixi reallıqların məntiqi nəticəsi olaraq ölkəmizdə yeni mərhələ başlayıb. Azərbaycanın suverenliyinin tam bərpası, Qarabağın azad olunması, eləcə də bu torpaqlardan separatizmin təmizlənməsi tarixi hadisə oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi. Azərbaycanın 30 illik işğal dönəminə son qoymasının əsas səbəblərindən biri və birincisi düzgün siyasi strategiyanın seçilməsi və xalqın dəstəyidir.

"Əlbəttə ki, mən xüsusilə son vaxtlar çox sevinirəm. Son dörd ildir ki, mənim həyatım tam fərqlidir. Hamımızın həyatı fərqlidir, hamımız tamamilə başqa əhvali-ruhiyyə ilə yaşayırıq, oyanırıq, xaricə gedirik. Qalib ölkənin nümayəndəsi kimi, xüsusilə rəhbər kimi yaşamaq, işləmək, beynəlxalq təmaslarda olmaq tamamilə fərqli hissdir. Xüsusilə nəzərə alsaq ki, 17 il ərzində biz tam fərqli bir vəziyyətdə idik, haqlı olduğumuza baxmayaraq bizi haqsız hesab edirdilər. Bütün bu 17 il ərzində ictimaiyyətin diqqətindən kənar bir çox məqamlar olub ki, insanı dərindən həm hiddətləndirirdi, həm üzürdü, həm də incidirdi. Ədalətsizlik-çünki, necə deyim, ən böyük ədalətsizlik elə ədalətsizlikdir". Bu fikirləri Prezident İlham Əliyev yerli telekanallara müsahibəsində "Coğrafi cəhətdən kiçik, amma qalib və güclü bir dövlətin Prezidenti olmaq necə hissdir?" sualına cavabında deyib.

Azərbaycan dünyanın nüfuzlu, Cənubi Qafqaz regionunun isə lider dövlətidir. Ötən dövr ərzində ölkəmiz böyük inkişaf yolu keçərək tarixi nailiyyətlər qazanıb. Bu nailiyyətlərin qazanılmasında Lider amili başlıca rol oynayır. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan Prezident İlham Əliyev də məhz dövlətə və xalqa zəfərlər qazandıran Liderdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz davamlı olaraq inkişaf edir, güclənir, regionda güc mərkəzinə çevrilib.

Dövlətin ən əsas məsələlərdən biri işğal altında olan torpaqlarımızın azad edilməsi idi. İkinci Qarabağ savaşı Azərbaycan Ordusunun qüdrətini, gücünü bir daha dünyaya təsdiq etdi. Bu gün işğaldan azad edilən torpaqlarda bərpa-quruculuq uğurla gedir. Eyni zamanda Böyük Qayıdış sürətlə davam edir. Dövlətimizi və cəmiyyətimizi maraqlandıran əsas məqamlardan biri azad olunmuş ərazilərdə aparılan işlərdir.Torpaqlarımızın işğaldan azad olunması, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpa edilməsindən sonra Azərbaycan dövlətinin və xalqının həyatında yeni bir dövr başladı. Bu dövrün əsas parametrləri Qarabağın və Şərqi Zəngəzurun qısa müddət ərzində bərpa olunması, məcburi köçkünlərin ata-baba yurdlarına geri qaytarılmasıdır.

Tarixi Zəfərə imza atanda xalqımız tam əmin idi ki, işlərimiz yarımçıq qalmayacaq. Qalibiyyət rəmzimiz olan üçrəngli bayrağımız Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə dalğalanacaq. Azərbaycan bu hədəfə sülh yolu ilə nail olmaq üçün səy göstərdi. Lakin Ermənistan 30 illik işğal dövründəki çirkin niyyətlərini davam etdirərək üzərinə düşən öhdəlikləri yerinə yetirmədi, hərbi təxribatlara ara vermədi. Vəziyyətin bu şəkildə davam etməsi Azərbaycanın lokal antiterror tədbirləri həyata keçirməsinə səbəb oldu. 2023-cü il sentyabrın 20-si çoxəsrlik tariximizə suverenliyimizin tam təmin olunduğu, ölkəmizin həyatında yeni mərhələnin başlandığı dövr kimi yazıldı. Azərbaycan öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə nail oldu. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm işlər görülüb. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyin təmin olunmasına xidmət edir. Habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradılır.

"Biz üç il ərzində 10 yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytara bilmişik. On mindən çox köçkün artıq evlərlə təmin edilib və orada yaşayır. Bütövlükdə 30 minə yaxın insan orada yaşayır, müxtəlif vəzifələrdə çalışırlar, inşaatda, dövlət işlərində və digər sahələrdə". Yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bu sözləri deyən Prezident İlham Əliyev bildirib ki, bu il üçün planlarımızda daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytarmaqdır. Həmin şəhər və kəndlərin adları artıq seçilib, layihələr icra edilir. Bir çox kəndlərdə, şəhərlərdə indi inşaat işləri gedir və bu ilin sonuna qədər 30-a yaxın yaşayış məntəqəsində keçmiş köçkünlər məskunlaşacaqlar.

Cənubi Qafqaz regionunda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr dövlətimizin iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Bu, o deməkdir ki, çoxvektorlu xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Regional təşəbbüslər hər zaman ölkəmizin möhkəmlənməsinə, bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət edib. Bu prosesdə ölkəmizə qarşı çıxan, onu zəiflətməyə çalışan qüvvələr olsa da, dövlətimizin başçısının qətiyyətli siyasəti ilə bütün belə planlar dəf olundu.

Prezident müsahibəsində bildirib ki, Amerikada da Soros dövrü başa çatıb. Bayden administrasiyası, əslində, Soros idarə üsulu ilə idarə olunurdu. Sorosçuların faktiki olaraq mövqelərini itirdiklərini vurğulayan dövlət başçısı deyib ki, Ermənistan rəhbərliyi bunu nəzərə almalıdır. Nəzərə alsın ki, Yaxın Şərqdə onların yaxın müttəfiqi Əsəd diktaturası artıq tarixin zibilliyinə göndərilib və bu davam edəcək, ona görə düzgün addım atsın. Biz Azərbaycan olaraq onlar üçün təhlükə mənbəyi deyilik. Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır.

Mustafa KAMAL,
"Respublika".

Respublika.- 2024.- 9 yanvar (№ 03).- S.5.